# Cənubi Azərbaycanın milli ədəbiyyat və mətbuat tarixində "Molla Nəsrəddin"...

**Bütün müsəlman Şərqində ilk satirik jurnal kimi tarixə düşən və böyük bir maarifçilik rolunu oynayan, xalqımızın qəflət yuxusundan ayılması, elmi-təhsilli millətlər cərgəsinə qoşulması üçün mücadilələr verən "Molla Nəsrəddin" jurnalının nəşri mühüm hadisə idi. Maraqlıdır ki, "Molla Nəsrəddin" jurnalı bütün Şərq aləmində populyar olub və maarifçilik hərəkatına güclü təkan verib.**



1906-cı ilin 7 aprel tarixində Tiflisdə nəşr olunan "Molla Nəsrəddin"in baş redaktoru böyük ədibimiz Cəlil Məmmədquluzadə, təsisçiləri isə Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, maarifpərvər tacir Məşədi Ələsgər Bağırzadə olub. 25 il çap olunan jurnalın taleyinə Cənubi Azərbaycanın Təbriz şəhərində nəşr olunmaq da yazılıb. Əlbəttə, Mirzə Cəlilin və onun qələm dostlarının əsas qayəsi bütün Şərqi, türk dünyasını, başlıcası isə, o taylı-bu taylı Azərbaycanı oyatmaq olub. Bu baxımdan, "Molla Nəsrəddin" jurnalının Təbriz dövrü də diqqəti çəkir. Jurnalın 8 sayını Mirzə Cəlil Təbrizdə çap edib. Jurnalın Təbriz həyatı olduqca maraqlıdır. "Molla Nəsrəddin" Təbrizdə nəşr edilməmişdən əvvəl də orada xeyli populyar idi.

### "Molla Nəsrəddin" hansı səbəbdən Təbrizdə nəşr edilib?

Tədqiqatçıların verdiyi məlumata görə, 1920-ci ildə Cəlil Məmmədquluzadə öz ailəsi ilə köçüb Cənubi Azərbaycana gedib və 1921-ci ilin fevralında "Molla Nəsrəddin"in nəşrini Təbrizdə yenidən bərpa etməyə nail olub. Qeyd etdiyimiz kimi, Təbrizdə jurnalın 8 nömrəsi işıq üzü görüb. Mərhum tədqiqatçı Qulam Məmmədli öz müsahibələrinin birində "Molla Nəsrəddin"in Təbriz nəşrinə aydınlıq gətirərək yazırdı ki, C.Məmmədquluzadə ailəsi ilə birlikdə Cənubi Azərbaycana köçdükdən sonra jurnalın çapını bərpa etmək istəyir. Onun "Molla Nəsrəddin"i azərbaycanca nəşr etmək istəyinə İran hökuməti icazə verməmişdi ki, gərək farsca çap olunsun. Mirzə Cəlil isə İran hökumətinin bu tələbi qarşısında söyləmişdi: "Təbrizdə ermənilər ermənicə qəzet çıxarırlar. Siz isə Azərbaycan dilində jurnal nəşr etməyə icazə vermirsiniz. Elə isə icazə verin "Molla Nəsrəddin"i ermənicə nəşr edim".

Burada da aydın görsənir ki, həmin dövrdə də ana dilimizə qarşı sərt təpkilər olub və yenə də ermənilərə geniş meydan verilib. Mirzə Cəlilin bu ironiyası öz işini görür və ona "Molla Nəsrəddin"i ana dilimizdə çap etmək imkanı verilir. Təbii ki, C.Məmmədquluzadənin bu sərt münasibəti jurnalın Təbrizdə ana dilində nəşrinə səbəb olur.

Akademik İsa Həbibəyli yazır: ""Molla Nəsrəddin" jurnalı nəşrə başladığı gündən türk-müsəlman xalqlarının həyatında baş verən mühüm ictimai-siyasi, ədəbi-mədəni hadisələri diqqət mərkəzində saxlamış və həmin məsələlərə fəal münasibət bildirmişdir. Məhz buna görə də məcmuədə Azərbaycan mövzusundan sonra İran və Cənubi Azərbaycan məsələsinə xüsusi diqqət yetirilmiş və orada baş verən ictimai-siyasi, milli-mənəvi proseslər geniş işıqlandırılmışdır. XX əsrin ilk onilliklərində cənublu həmvətənlərimizin həyatı, taleyi, mübarizəsi "Molla Nəsrəddin"in ana xətlərindən birini təşkil etmişdir. "Molla Nəsrəddin" jurnalı yalnız Qafqaz türklərinin, daha çox da Şimali Azərbaycan vətəndaşlarının deyil, həm də Cənubi Azərbaycan türklərinin mətbu orqanı olmaq vəzifəsini bütün məsuliyyət və şərəfi ilə yerinə yetirmişdir. Bakıda, Qarabağda, Naxçıvanda olduğu kimi, Təbrizdə, Xoyda, Zəncanda da əhali "Molla Nəsrəddin"i vaxtaşırı alıb oxumuş, yaymış, müzakirə etmişdir".

Filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babazadə jurnalın Təbriz dövründən bəhs edərək yazır ki, yuxarıda qeyd edilənlər İranda, əsasən də, Təbrizdə "Molla Nəsrəddin"in nəşri üçün zəmin hazırlayıb.

"Təbrizdə "Molla Nəsrəddin" mühitini yetişdirən vasitələrdən biri də orada satirik mətbuatın yaradılması ilə bağlı idi. 1906-cı ildə maarifçi ziyalı Əliqulu Səfərovun redaktorluğu ilə Təbrizdə Azərbaycan türkcəsində nəşrə başlayan "Azərbaycan" adlı satira jurnalı öz üslubuna, quruluşuna və ideya istiqamətinə görə "Molla Nəsrəddin"ə çox yaxın idi. Sonralar İranda bu jurnalın təsiri ilə farsdilli satira mətbuatı inkişaf etmişdir. Seyid Əhməd Gilaninin redaktorluğu ilə nəşr olunan "Nəsimi-Şimal" (1907-1912), Cahangir xanın redaktə etdiyi "Suri-İsrafil" (1907-1908) satirik jurnallarında da mollanəsrəddinçi əhval-ruhiyyə aydın duyulmaqda idi. C.Məmmədquluzadə "Molla Nəsrəddin"in Təbriz nəşrlərinə qədər bir çox məlumatlar əldə edərək jurnalın səhifələrində dərc etmişdir. O, ilk dəfə olaraq Mirzə Əbdürrəhim Talıbov (1837-1911) və Marağalı Zeynalabdin (1838-1910) kimi sənətkarların yaradıcılığını bu jurnal vasitəsilə işıqlandırmışdır. Xüsusilə də "İbrahim bəyin səyahətnaməsi" romanına jurnalın səhifələrində geniş yer verərək oxuculara tanıtmış və onun motivi əsasında "Səyahətnamə" rubrikası yaratmışdır.

Yenicə qurulan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti formalaşdırmaq məsələləri ilə məşğul olduğundan "Molla Nəsrəddin" jurnalının taleyi də nisbətən arxa plana keçmişdir. C.Məmmədquluzadənin mövcud şəraitdə "Molla Nəsrəddin"in yenidən nəşrə başlayacağına ümidi yox idi. Buna görə də qardaşı Ələkbər Məmmədquluzadənin Təbrizə dəvətini qəbul edir, jurnalı orada nəşr etməyi qərara alır. Eyni zamanda, C.Məmmədquluzadə Şeyx Məhəmməd Xiyabaninin (1880-1920) Cənubi Azərbaycanda yaratdığı "Azadistan Cümhuriyyəti"nə də ümidlər bəsləyirdi. Nəhayət, C.Məmmədquluzadə ailəsi ilə birlikdə 11 iyun 1920-ci ildə Qarabağın Kəhrizli kəndindən Təbrizə yola düşür. Həmin ilin 7 sentyabrında - iki ay iyirmi altı gündən sonra Təbrizə çatır. 10 sentyabrda Şeyx Məhəmməd Xiyabani ilə görüşmüş, lakin 14 sentyabrda Xiyabani qətlə yetirilmişdir. Buna baxmayaraq, Mirzə Cəlil onun milli amallarına sonadək sadiq qalmışdır. Təbrizdə Xiyabani hərəkatının süquta uğradılması, C.Məmmədquluzadənin qardaşının həbs edilməsi "Molla Nəsrəddin"in nəşrini çətinləşdirir. Lakin dörd aylıq mübarizədən sonra, 1921-ci ilin 14 fevralında jurnalın nəşrinə icazə verilmişdir. Təbrizdə "Molla Nəsrəddin"in səkkiz sayı nəşr edilmişdir. 20 fevral 1921-ci ildə "Molla Nəsrəddin"in Təbrizdəki ilk sayı 1000 nüsxə tirajla işıq üzü görmüşdür. 1921-ci ilin 9 martında ikinci, 20 martda üçüncü, 31 martda dördüncü, 10 apreldə beşinci, 23 apreldə altıncı, 7 mayda yeddinci, 15 mayda səkkizinci sayı nəşr olunmuşdur.

"Molla Nəsrəddin"in Təbrizdə nəşr olunan 1-ci və 2-ci sayı məşhur "Hüseyni" mətbəəsində, 3-8-ci sayları isə tanınmış inqilabçı Əbülqasim İskəndaninin "Ümid" mətbəəsində nəşr olunmuşdur.

"Molla Nəsrəddin"in Təbrizdə nəşr olunmasında "Təcəddüd" qəzetinin redaktoru Əbülfət Ələvinin böyük xidmətləri olmuşdur. O, Təbriz şəhərinin valisi Mehdiquluxan Hidayət Müxbirüssəltənə (1881-1954) ilə danışıqlar təşkil etmiş və baş məqalə istisna olmaqla, jurnalın Azərbaycan türkcəsində çap olunmasına razılıq almışdı. "Molla Nəsrəddin"də fars dilində yazılan baş məqalə, elan və xəbərlər də Ə.Ələviyə məxsusdur. Jurnalın Təbriz mərhələsində İsgəndərxan Qəffari Sürxpuş (1879-1967) da iştirak etmişdir. "Molla Nəsrəddin"in həm Tiflis, həm də Təbrizdə nəşr olunduğu vaxtlarda Cənubi Azərbaycan üzrə müvəkkil vəzifəsini icra etmişdir. Jurnalın xalq arasında geniş yayılıb oxunmasında Sabir satira ənənələrinin davamçısı Mirzəli Möcüz Şəbüstərinin (1873-1934) böyük rolu olmuşdur. Onun "Təzə şair", "Kabla Haxverdi" gizli imzaları ilə yazdığı "Olsun gərək", "Hamamlarımız" kimi satiraları jurnalın Təbriz nömrələrində dərc edilmişdir. Karikaturaçı rəssam Seyid Əli Behzad (Müsəvvizadə), Mirzə Məhəmmədəli Nəqqaş, Mir Müsəvvir Nəqqaş kimi rəssamların, Hacı Əli Şəbüstəri, Cabbar Əsgərzadə, Mehdixan Şərifzadə, Möhsünxan Sərtibi, Əli Azəri və b. ziyalıların da xidmətləri olmuşdur".

Tədqiqatçı qeyd edir ki, "Molla Nəsrəddin"in Təbriz nəşrləri İranın, xüsusən də Cənubi Azərbaycanın konkret tarixi mərhələdəki əsas problemlərini əhatə edə bilmiş, öz sözünü demişdir. Qərbin azadlıq pərdəsi altında İranın vardövlətini talaması, xalqı əsarətdə saxlaması tənqid atəşinə tutulmuşdur. Jurnal Cənubi Azərbaycandakı mənəvi əsarəti, iqtisadi geriliyi qətiyyətlə pisləmiş, cəhalət və xurafatdan yaxa qurtarmağın yollarını göstərmiş, elmə, maarifə yiyələnməyi, mənfi adətlərdən əl çəkməyi vacib hesab etmişdir. Bütövlükdə "Molla Nəsrəddin"in Təbriz dövrü İranda və Cənubi Azərbaycanda mənəvi dirçəlişə, ictimai tərəqqiyə güclü təkan vermiş və iki yerə parçalanmış xalqlar arasında ədəbi-mədəni körpü yaratmışdır. Bu fikirləri də qeyd edən alim bildirir ki, "Molla Nəsrəddin"inredaktoru Cəlil Məmmədquluzadə yeni qurulmuş Sovet dövlətinin Azərbaycandakı təmsilçilərinin dəvəti ilə Cənubi Azərbaycandan Bakıya qayıdır...Juranlın Bakı həyatı isə başqa bir yazının mövzusudur.

Milli mənlik şüurumuzun oyanmasında, maarifçiliyin təbliğində, ana dilimizin müdafiəsində əhəmiyyətli rol oynayan "Molla Nəsrəddin" jurnalının Təbriz dövrü və onun Təbrizin, Cənubi Azərbaycanın həyatında oynadığı roldan danışdıq...

***İradə SARIYEVA***